**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 013/264**

**Bakı şəhəri** **“27” mart 2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2022-ci və 2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, İordaniya Haşimilər Krallığının Amman (Amman), İrbid (Irbid), Karak (Karak) əyalətlərində və Qazaxıstan Respublikasının Karağandı (Qaraghandy) vilayətində dabaq, Amerika Birləşmiş Ştatlarının Minnesota (Minnesota), Merilend (Maryland), Texas (Texas) ştatlarında isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, qeyd olunan inzibati ərazi vahidlərində yuxarıda sadalanan xəstəliklərə görə ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatmış və epizootik sağlamlıq statusu bərpa olunmuşdur.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adları çəkilən inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi” nəzərə alınaraq, Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Dabaq xəstəliyi üzrə:**

**1.1.1.** 2021-ci il 15 noyabr tarixli 067/162 nömrəli qərarla İordaniya Haşimilər Krallığının Amman əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2021-ci il 29 dekabr tarixli 079/174 nömrəli qərarla İordaniya Haşimilər Krallığının İrbid əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.3.** 2022-ci il 17 yanvar tarixli 004/179 nömrəli qərarla Qazaxıstan Respublikasının Karağandı vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.4.** 2022-ci il 30 mart tarixli 021/196 nömrəli qərarla İordaniya Haşimilər Krallığının Karak əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 12 aprel tarixli 023/198 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Minnesota ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.2.2.** 2022-ci il 13 dekabr tarixli 072/247 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Merilend ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.2.3.** 2023-cü il 6 fevral tarixli 005/256 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Texas ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**